Görüşdə əsas məqsəd "Hilfsverk Austrya" təşkilatı tərəfindən Biləsuvar rayonunun yeni istifadəyə verilən qəsəbələrinin birində kənd təsərrüfatı istiqamətli peşə məktəbində müəllim hazırlığı, avadanlıqlarla təminat üzrə lazımi işlərin həyata keçirilməsi olub.

Bu günlərdə təhsil naziri Misir Mərdanov Avstriyanın "Hilfsverk Avstriya" təşkilatının nümayəndəsi Brigit Stoepler, Gəncə Aqrobiznes Assosiasiyasının rəhbəri Amin Babayevlə görüşüb.

Görüşdə əsas məqsəd "Hilfsverk Austrya" təşkilatı tərəfindən Biləsuvar rayonunun yeni istifadəyə verilən qəsəbələrinin birində kənd təsərrüfatı istiqamətli peşə məktəbində müəllim hazırlığı, avadanlıqlarla təminat üzrə lazımi işlərin həyata keçirilməsi olub.

Onu da bildiririk ki, artıq qeyd olunan peşə məktəbinin açılması ilə əlaqədar hazırlıq işləri aparılıb, orta məktəbin binasında müvafiq yerin ayrılması razılaşdırılıb, aqronom ixtisası üzrə müəllimlər treninqdən keçib və tədris proqramları hazırlanaraq Avstriyaya ekspertizaya göndərilib.

Təhsil naziri Misir Mərdanov Azərbaycan Repsublikası Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə təsdiq olunan "Azərbaycan Respublikasında texniki-peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı"na (2007-2012-ci illər) əsasən görülən işlərdən danışıb. Eyni zamanda nazir Biləsuvar rayonunda yaradılacaq peşə məktəbinin regionun iqtisadi inkişafında, məşğulluq probleminin həll edilməsində xüsusi əhəmiyyət daşıyacağını qeyd edib və gənclərin peşə təhsili almaq imkanlarının genişlənəcəyini diqqətə çatdırıb.

Sonda Misir Mərdanov nazirliyin Texniki peşə təhsili şöbəsinin müdiri Namiq Məmmədova həmin məktəbin yeni tədris ilində açılması üzrə müvafiq işlərin tamamlanması barədə tapşırıq verib.